

**SİRUS TƏBRİZLİ,**
Yeni Azərbaycan Partiyası sədrinin müavini,
Milli Məclisin Komissiya sədri

## MÜJDƏ
### *(Heydər Əliyev şəxsiyyəti haqqında düşüncələr)*

1969-cu il avqustun son günləri idi, bir aylıq Moskva ətrafındakı istirahətdən sonra Bakıya qayıdırdım. Paytaxtın dəmiryol vağzalında təsadüfən mənimlə Sumqayıt şəhəri 17 nömrəli orta məktəbin rus bölməsində işləyən müəllimə ilə rastlaşdım. O, hal-əhvaldan sonra çox mühüm bir xoş xəbər, müjdə verirmiş kimi dedi: "Sirus, bilirsən, Azərbaycana Heydər Əliyev adında bir nəfəri rəhbər qoyublar, lap sən deyən adamdır, görünür çox prinsipial, sərt və təmiz insandır, bütün nöqsanlardan çəkinmədən danışır. Hamı deyir ki, Azərbaycan partiya təşkilatına hələ beləsi gəlməyibdir..."

Düzü o zaman həmkarımın şad xəbərini, müjdəsini o qədər də nikbinliklə qarşılamadım. Cavan olmağıma baxmayaraq, artıq bir çoxları kimi məndə də kommunist partiyasının özünə şəkk- şübhə yaranmışdı.

Biz ailəliklə 1951-ci ilin yayında Sovet Azərbaycanına gələndə burada yer də, göy də Stalinin dahiliyindən, böyüklüyündən, ədalətliliyindən danışırdı. Hamı kimi şübhəsiz mən də bütün deyilənlərə tam səmimiyyətlə inanırdım. Hələ rəhbər sağ ikən bir gün atam deyəndə ki, bala, mən İranda şah zülmünə qarşı vuruşmuşam, demə, Stalin ondan da əzazil imiş, hətta onda da mən doğma atamdan çox ətrafda deyilənlərə inanmışdım. O zaman bizə məktəbdə tez-tez xorla sovetçin dostluğundan bir nəğmə oxutdururdular. Nəqarətində belə sözlər vardı: "Stalin i Mao sluşayut nas! Sluşayut nas" Küçədə isə uşaqlar onu belə oxuyurdular: Stalin i Mao kuşayut nas! Kuşayut nas!" Bir gün məktəb xorunda mən nəqarəti küçədə eşitdiyim kimi oxuyanda idman müəllimimiz Səbzəlinin boynumun ardına saldığı şapalaq güllə kimi açıldı. Sonralar uzun illər "Moskva- Pekin" mahnısını dinləyəndə onun melodiyasından çox Səbzəlinin peysərimdəki şapalağının səsini eşidirdim. Stalin öləndən sonra o şapalaq məni daha pis göynədirdi. Məlum oldu ki, atam da haqlı imiş küçədəki uşaqlar da . Bir neçə il də Stalini ifşa eləyən Xruşşova inandıq. 1964-cü ildə onu da devirdilər və məlum oldu ki, Xruşşov heç də "bir nömrəli kommunist" deyil, əsl avanturist imiş. Elə həyatımız da belə yalanlar, əyintilər, fırıldaqlar, oğurluqlar içərjsində keçirdi.

1969-cu ildə artıq mənim on bir il iş stajım vardı. Birinci iş yerim Quba konserv zavodunda fəhlədən direktora kimi hamı meyvə, kampot, mürəbbə, cem, şəkər, hətta banka qapaqlarına qədər oğurlayırdılar. Fərq ondaydı ki, fəhlələr ciblərində, çan-

talarında daşıyırdılar, direktor isə maşınla. İkinci iş yerim olan həmin rayonun "RTS"-ində biz fəhlələr yay-qış qan-tər içində qara qəpik- quruşa işləyirdik, rəhbərlikdə isə dörd-beş adam keyf edirdilər, "Zavxoz" umuzla," buxalter"imiz hətta ildə bir neçə dəfə Moskvaya , Kiyevə futbol yarışlarına tamaşaya gedirdilər. Üçüncü iş yerim Bakının Zıx internatməktəbi, dördüncü də Sumqayıt şəhər 1 nömrəli internat məktəbi oldu. Burada da rəhbərlik uşaqların ərzağını, paltarını, yorğan-döşəyini üsulluca çırpışdırırdılar, o cümlədən də yetim uşaqların. Onlara qarşı kimsə baş qaldıranda hər yolla aradan götürürdülər. Elə mənim 17 nömrəli orta məktəbə keçməyimə də internat məktəbin direktoru "köməklik" göstərmişdi. Və bütün bu işlər, heç şübhəsiz ki, "doğma, əziz" kommunist partiyasının gözləri qarşısında, onun "əbədi rəhbərliyi" altında cərəyan eləyirdi.

Həmkarımın Moskva vağzalındakı şad xəbərinə, müjdəsinə şəkk-şübhəm də bu reallıqlardan törənirdi. Lakin Bakıya dönəndən sonra yavaş-yavaş qəlbimdəki şəkk-şübhəni inam əvəzlədi. Hətta iş o yerə çatdı ki, dəfələrlə "mestkom"u olduğum məktəbdə "partkom"un mənə partiyaya keçmək təklifinə rədd cavabı versəm də, məhz Heydər Əliyevin respublikada apardığı işlərdən, bir çoxları kimi mən də razı qaldığımdan 1970-cı ildə kommunist partiyası sıralarına qəbul üçün ərizə verdim. Əsasım respublikanın birinci katibinə inamım, məqsədim isə bir sıravi kommunist kimi bacardığım köməyi göstərmək olmuşdu. Onun işləri isə göz qabağında idi. Əvvəla, hamıya aydın idi ki, bu insan sadə camaatın, əsl xalqın tərəfini saxlayırdı. Onun tənqid atəşinə tutduğu öz vəzifə və məqamlarından sui- istifadə eləyənlər, dövlətin, xalqın malını talayanlar idi. Dünənə kimi ətalətdə olan Azərbaycanda bütün sahələrdə canlanma yaranmışdı. Bir vaxtlar bizim xərcləyə bilmədiyimiz pullar başqalarına verilirdisə, indi ildən-ilə Ümumittifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılırdı. Və Azərbaycanda adi insanın, fəhlə- kəndlinin get-gedə daha yaxşı yaşaması taxılçıların, pambıqçıların, tütünçülərin tərəvəzçilərin, mexanizatorların, inşaatçıların, ümumiyyətlə işzəhmət adamlarının aldıqları mənzillərdən, maşınlardan, ucaltdıqları yaraşıqlı evlərdən, oxutdurduqları övladlardan, aldıqları mükafatlardan görünürdü. Bu gün müstəqil Azərbaycanda çalışan mütəxəssislərin əksəri o dövrdə istər respublikanın, istərsə də SSRİ-nin başqa şəhərlərində təhsil almışdılar. Heydər Əliyev iş üslubu nəinki Azərbaycanda, çox-çox uzaqlarda da hamıya bəlli idi. O, xalqa, dövlətə fayda verənlərə diqqət, hörmət göstərir, zər verirdi, xalqın dövlətin malını talayanlara qarşı kəskin mübarizə aparır, zor işlədirdi. (Günlərin bir günü Quba rayon "RTS"-dəki, "zovxoz"la "buxalter"i də tutdular və məsuliyyətə cəlb etdilər güllələdilər). Bütün bu prosesləri sonralar bir jurnalist, publisit kimi daha yaxından izləyə bilirdim.

Lakin etiraf etmək lazımdır ki, Heydər Əliyevin o zamanlar İttifaqda səs saldığı rüşvət və korrupsiya əleyhinə apardığı qətiyyətli mübarizəsi istənilən nəticəni vermirdi. Çünki yiyəsiz, sahibsiz mülkiyyəti nə qədər möhkəm qorusan da, onun müəyyən hissəsini mütləq oğurlayacaqlar. Elə rüşvət, korrupsiyanın kökü də malı, imanı inkar eləyən kommunist sisteminin məğzində, mahiyyətində idi.



Bu gün isə Heydər Əliyev bu işləri apardığı qətiyyətli iqtisadi reformalarla çox uğurla həyata keçirir. O sahədə ki özəlləşmə aparılıb, həm işlər qaydasına düşüb, həm bolluq yaranıb, həm də yuxarıda sadaladığımız neqativ hallar aradan götürülüb. Biz bunu artıq çörək, nəqliyyat, ticarət, rabitə, tikinti, aqrar, xidmət və başqa sahələrdə əyani şəkildə görürük. O zaman isə bu əyintilər, qüsurlar sistemin öz əyriliyindən, qüsurlarından törənirdi.

Bu yaxınlarda "Nezavisimaya qəzeta" Şevardnadzenin 75 illiyi ilə bağlı iri yazı dərc etmişdi. Orada vaxtı ilə Gürcüstan rəhbərliyinin respublikada rüşvət, korrupsiya əleyhinə apardığı mübarizənin uğursuzluğundan da danışılır və qeyd olunurdu ki, o zaman iş o yerə çatmışdı ki, Gürcüstanda hansısa bir dövlət məmuruna rüşvət verən təklif edəndə ki, xidmətinizə görə bu min manatı götürün və əmin olun ki, heç kəs bilməyəcək məmur da öz növbəsində deyirdi:" Sən xidmətimə görə beş min ver, qoy hamı da bilsin". Yuxarı vəzifə -məqam sahiblərini sıxdıqca onlar rüşvətin məzənnəsini bir az da artırırdılar. (Heydər Əliyevin özü də çıxışlarında bunu etiraf edib). Bütün bunlara baxmayaraq, Heydər Əliyev xalq, dövlət malına xəyanət edənlərə qarşı amansız idi. O bələlərinin nə vəzifəsinə, nə də ali mükafatlarına baxırdı, xəbər tutanda mütləq cəzalandırırdı, çünki özünün həyat qayəsi daim xalqı, dövləti, Vətəni Azərbaycanı zənginləşdirmək olubdur.

Keçən əsrin 70-ci illərinin sonunda "Kommunist" qəzeti mənə o zaman Abşeron rayon partiya komitəsinin birinci katibi vəzifəsində çalışan, Sosialist Əməyi Qəhrəmanı Tamara Hümmətova haqqında yazı sifariş vermişdi. Onunla bir neçə dəfə görüşdüm və çox adamlar , çox mətləblər barədə söhbət apardım. Müsahibim Heydər Əliyevlə bağlı belə bir əhvalat danışdı: "Səhv etmirəmsə, 1967-ci il idi. Mərkəzi Komitədə təlimatçı işləyirdim. Respublikanın şimal rayonlarının birindəki tədbirdən qayıdırdım. Gəndob yaxınlığında yol ilə gələrkən gördüm ki,o zamankı KQB-nin sədri Heydər Əliyev piyada üzü Bakıya doğru gedir.Sözsüz ki, onu tanıdım və maşını əylətdim. Məlum oldu ki, o da başqa rayondan tədbirdən qayıdırmış. Və yolda maşının təkəri buraxmış, sürücü nasos üçün baqajı açanda Heydər Əliyev orada pay-püş görüb və soruşub: -"Bunlar nədir?". Sürücü cavab verib ki, rayondakı filan vəzifə sahibi qoyub. Heydər Əliyev sürücüyə deyib: "Təcili geri dön və bunları həmin adama qaytar, mən isə yavaş-yavaş gedirəm".

Xalq başqaları üçün yaşayanlara, yaradanlara həmişə hörmət, qayğı ilə yanaşır, bu işləri təmənnasız görənləri isə ürəkdən sevir, əzizləyir və daim başı üzərində bayraq kimi ucalara qaldırır. 1982-ci ilin payızında illər boyu torpağını, xalqını ucaldan Heydər Əliyevi Azərbaycan xalqı dünya siyasətində möhtəşəm yer tutan bir super-dövlətin Siyasi Bürosuna, rəhbərliyinə ucaltdı. Çox keçmədi ki, vaxtı ilə Sovet İmpersiyasının ucqar Naxçıvanında fəhlə ailəsində dünyaya gəlmiş bir insan öz ağlı, bacarığı, siyasi və idarəetmə məharəti sayəsində beynəlxalq aləmdə tanındı, eyni zamanda dünyanın ən iri məmləkətinin başçısı olmağa layiq görülən dövlət xadimi, siyasətçisi səviyyəsinə qalxdı. İndi Rusiyanın, keçmiş Sovet Respublikalarının bir sıra qabaqcıl ziyalıları, siyasət, elm, dövlət adamları vaxtı ilə dövlətin sükanının Heydər Əliyevə verilməməsinə heyfslənirlər.

1993-cü il iyunun 1-də vaxtı ilə Sovet dövlətində yüksək vəzifələrdə işləmiş N.K.Baybakovla birlikdə Naxçıvana uçurduq. O, Heydər Əliyev barədə çox böyük hörmət, ehtiram və məhəbbətlə danışırdı.Söhbət əsnasında Baybakov dedi ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi son illərdə Mərkəzi neftdən yayındırır, fikri kənd təsərrüfatına yönəltməklə nefti Azərbaycanın gələcək nəsilləri üçün qoruyurdu. Moskvada işləyərkən o, ətrafdakılara Azərbaycan xalqının bütün yaxşı cəhətlərini nümayiş elədi. Çox tez zamanda nəinki özü, hətta həyat yoldaşı Zərifə xanım da qadınlar arasında böyük nüfuz qazandı...

Elə həmin səfərdə Heydər Əliyevin bir keyfiyyəti, onda olan yüksək məsuliyyət hissi də mənim üçün çox qabarıq açıldı. Bunu mən əvvəllər də düşünmüşdüm. Heydər Əliyev üçün gördüyü işin kiçiyi və ya böyüyü yoxdur. İstər adi uşaq baxçasına getsin, istərsə də nəhəng zavoda, ya da möhtəşəm beynəlxalq tədbirə-hamısına eyni məsuliyyət hissi ilə yanaşır. O gün müşahidə elədiyim isə tam başqa idi. Baybakovun səfəri bir günlük idi. 70 yaşı ilə bağlı gec də olsa, köhnə dostunun ziyarətinə gəlmişdi. Üçlükdə nahar eləyirdik. Birdən Baybakov Heydər Əliyevdən çox səmimi soruşdu:" Nəhəng Sovetlər ölkəsinə sığışmayan Heydər Əliyev bu kiçik Naxçıvana necə sığışır.? Sual həm soruşanı həyəcanlandırmışdı, həm də cavab verəni, heç şübhəsiz ki, məni də. Heydər Əliyev həyəcanını gizlətmədən, amma təmkinlə dedi; "Nikoloy Konstantinoviç, əzizim, bura mənim kiçik vətənimdir və bu gün burada blokadada yaşayan insanlara mən çox gərəyəm, hədsiz dərəcədə gərəyəm, lazımam. Buna görə də ərazi baxımından olmasa da, mahiyyətcə kiçik vətənim mənim üçün Sovetlər ölkəsindən çox-çox böyükdür".

Ən qəribə hadisə Naxçıvan təyyarə meydanında baş verdi. Biz hörmətli qonağı ora gətirəndə artıq təyyarə uçuşa hazır idi, mühərrikləri də işləyirdi. Baybakov təyyarəyə qalxan kimi trap çəkildi, qapı bağlandı, biz də oradan uzaqlaşdıq. Mən Heydər Əliyevin ardınca ikinci maşında idim. Bir az gedəndən sonra onun maşını elə meydanda dayandı. Təxminən 40-45 dəqiqə gözlədik. Yalnız təyyarə göyə qalxandan sonra Heydər Əliyevin maşını tərpəndi və biz Ali Məclisə yollandıq. Mən kabinetdə Heydər Əliyevdən soruşdum.: "Siz böyük xətir-hörmətlə Baybakovu qarşıladınız və təyyarəyə kimi ötürdünüz, lakin orada bu qədər dayanmaq nəyə kərək idi, onsuz da sizin orada dayanmağınızdan Baybakov xəbərsiz qaldı. Onun cavabı belə oldu."Sirus, Baybakovun xəbər tutub-tutmaması mənim üçün vacib deyil, əsas məsələ odur ki, mən təyyarənin qalxmasını gördüm və arxayınlaşdım. Özgə vaxt belə narahatçılıq keçirməzdim. İndi Naxçıvan aeroportunda cəbhəçilər meydan sulayır, onlardan nə desən, çıxar, nə ağsaqqal anlayırlar, nə də qonaq-qara.. Mən isə hər kəs üçün o cümlədən də yaşlı, hörmətli qonağım Baybakov üçün də hədsiz dərəcədə məsuliyyət daşıyıram."

Sonra o, məsuliyyət hissi ilə bağlı belə bir söhbət də etdi: " Mən birinci katib işləyəndə hər gün eyni vaxtda işdə olurdum, buna görə də evdən çıxmaq vaxtım da dəqiq və dəyişməz idi. Bir dəfə Zərifə xanımın söhbətini yarımçıq qoyub maşına sarı gedəndə o gileyləndi.: " Axı, respublikanın birinci katibisiniz və heç kim Sizə nəzarət etmir,işə azacıq geciksəniz nə olar ki ?.." Mən dedim: "Zərifə, mənə bir nəfər yox, bütün xalq nəzarət edir. Əgər işə beşcə dəqiqə geciksəm, o birilər on beş dəqiqə, daha artıq gecikərlər." Sonra o, təəssüflə əlavə etdi: "İndi bəzən işlə bağlı Bakıya, prezidentə telefon açıram, günün günorta çağı deyirlər ki, hələ işə gəlməyib. Belə də dövlət idarə etmək olar!?"

Bəli, yüksək məsuliyyət hissinin arxasında çox böyük vicdan dayanır. Xalqı vicdansızlıqla aldadaraq hakimiyyətə gəlmiş Bakıdakı məsuliyyətsiz "bəy"lər hələ Naxçıvanda da hakimiyyəti ələ keçirməyə can atırdılar. 1992-ci ilin iyulun 19-da Heydər Əliyev məni Naxçıvan cəbhəçilərinin rəhbərləri ilə danışığa göndərdi. Orada mən çox məntiqsiz, bekara sözlər, sayıqlamalar dinləməli oldum. Suallardan biri də belə idi: "Sirus bəy, siz keçmiş KQB generalının, Siyasi Büro üzvünün bu gün məsciddə minbərə çıxmasına necə baxırsınız?" Qayıdandan sonra mən cəbhəçilərlə söhbətimin xülasəsini söylədim. Məscid, minbər barədə Heydər Əliyev bunları dedi: "Aşura günü məscidə getmişdim, gözlənilmədən bir dəstə adam məni əllərinə götürərək "Ya Heydər! Ya Heydər!" deyə-deyə aparıb minbərə əyləşdirdilər. Düzü əvvəl özümü itirdim, sonra anladım ki, bu minbərdən bir-iki kəlmə deməsəm, buradan düşə bilməyəcəm. Ona görə də qısaca danışıb, sözlərimi deyib düşdüm. Əvvəla, bayaq dediyim kimi, minbərə özüm çıxmamışdım, o ki, qaldı Allaha, dinə inamım məsələsinə, mən ömrüm boyu hansı işdə çalışmağıma baxmayaraq, Allahı heç zaman unutmamışam. Ona görə də KQB-də belə işləyərkən heç kimə nəinki pislik etməmişəm, hətta çoxlarına köməklik göstərmişəm, o cümlədən həmin cəbhəçilərin rəhbəri Əbülfəz Elçibəyə də."

Bu söhbətdən ailəmdə belə heç kəsin xəbəri yox idi. Keçən il Tibb Universitetinin tələbəsi, qızım Sevinc dərsdən qayıdanda evdə belə bir əhvalat danışdı. "Bu gün bizim qocaman müəlllimlərimizdən biri Faquma Bağırlı dedi ki, vaxtı ilə cavan olanda uşaq xəstəlikləri şöbəsində gecə növbəsində idim. Dedilər ki, KQB-nin sədrinin uşağını müayinəyə gətiriblər. Mən çıxdım və gördüm ki, balaca halsız İlham Zərifə xanımın qucağındadır. Və ana uşağın vəziyyətindən narahatdır, ağlayır. Bu zaman Heydər Əliyev ona təskinlik verir, deyirdi: " Zərifə, ağlama, bir oğlumuz var, Allah onu bizdən almaz".

Keçən ilin son qarlı çovğunlu günlərində qocaman işçimiz Ənvər müəllimin yas yerində idim. Orada şəxsiyyətinə hörmət bəslədiyim , həmişə söhbətlərini maraqla dinlədiyim Ali Məhkəmənin keçmiş sədri Abdulla İbrahimovla görüşdüm. Yas yerindən çıxanda havanı da nəzərə alıb Abdulla müəllimdən soruşdum: "Maşınınız var ?" O, ərkyana dedi: "Səninlə gedəcəyəm! "Bu mənim üçün hədsiz dərəcədə böyük sayğı idi. Yol boyu Abdulla müəllim Tanrıya etdiyi ibadətlərdən danışarkən dedi: "Hər dəfə namaz üstdə Heydər Əliyevə dualar oxuyuram. Xüsusən iki işinə görə: birincisi, Allah onun ömrünü uzun eləsin,atəşkəslə nə qədər balalarımızı qoruyub saxladı, ikincisi , o boyda Sovet hökuməti azacıq qar düşəndə Bakını çörəklə təmin edə bilmirdi. Sən son günlərin qarına-çovğununa bax, bir də çörəyin ərzağın bolluğuna , şəxsən mənim üçün möcüzədir. Bu kişinin ayağı ruzuludur, çünki, Allah adamıdır. O daim Allahını ürəyində yaşadıb, mən bunun

şahidiyəm. Birinci katib seçiləndən üç gün sonra məni Ali Məhkəmənin sədri kimi kabinetinə dəvət etdi və dedi ki, Abbdulla , biz səninlə Peyğəmbərin kəlamları ilə işləyəcəyik."

1992-ci ilin sentyabrında Naxçıvanda Saltak kəndində idim. Qonşu kənddən yanıma üç gənc gəlmişdi. Onlar mənim "Heydər bəyi biz çağırmalıyıq!" yazımı oxumuşdular, elə görüşlərinin məqsədi də orada qaldırılan məsələ ilə bağlı idi. Qiyafələrindən kənd uşaqlarına oxşamırdılar.Məlum oldu ki, Moskvada təhsil alırlar. Onlar mənə dedilər ki, Sirus bəy, siz deyən hökmən olacaq, Heydər Əliyev mütləq hakimiyyətə qayıdacaq. Çünki o, Allah adamıdır və mistiq qüvvəyə malikdir, Tanrı onu Azərbaycana xilaskar göndərib. O zaman bu müasir gənclərin demokrat adı ilə hakimiyyətə gələnlərə deyil, məhz Heydər Əliyevə inanmaları məni həm həyəcanlandırdı, həm də hədsiz dərəcədə sevindirdi. Və bir daha inandım ki, Heydər Əliyevi hakimiyyətə gətirmək məqsədi ilə yaranan Yeni Azərbaycan Partiyası öz məqsədinə hökmən nail olacaqdır. Çünki bu partiyanı yaradan əsas amil nəhəng şəxsiyyətin uzun illər vətəni, xalqı üçün gördüyü böyük, nəcib əməllərindən yaranmış ümumxalq məhəbbəti , sevgisi və inamı idi. Vaxtı ilə Heydər Əliyevin vəzifəyə qoyduqlarının əksəriyyəti çox şeylər aldılar, tikdilər, yığdılar. İşdən çıxandan sonra evsiz, bağsız , maşınsız qalan Heydər Əliyevin qazandığı isə ümumxalq məhəbbəti, inamı, sevgisi oldu. Elə onu ikinci dəfə hakimiyyətə qaytaran da vaxtı ilə xalq üçün təmənnasız gördüyü çox böyük, misilsiz işləri idi. Azərbaycan tarixində heç kəs bu insan qədər xalqa, dövlətə böyük işlər görməyib və bundan sonra da belə səadət heç kəsə nəsib olmayacaq. Ona görə də xalq, vətən üçün bircə şamını da qıymayanlar ömrünü xalqı, vətəni yolunda məşələ çevirmiş Heydər Əliyevin qarasına nə qədər deyinsələr də, kölgəsini nə qədər döyəcləsələr də, xalqın ona olan əbədi inamını sarsıda bilməyiblər, heç zaman da bilməyəcəklər.

Heydər Əliyevin 1993-cü ilin yayından üzübəri gərgin, fədakar fəaliyyətini döyüş meydanında mərmi, güllə altında çadırda, səyyar emalatxanada sınıq- salxaq halına salınmış maşını düzəldən, sazlayan mexanikə bənzətmək olar. O, bütün çətinliklərə, ekstrimal vəziyyətlərə baxmayaraq, xalqın dəstəyi ilə Azərbaycan dövlət maşınını sazlamağa və bu maşını çox mürəkkəb, ağır, hədsiz dərəcədə çətin, xatalı, təhlükəli yollardan keçirməyə qadir oldu.

Heydər Əliyevin qayıdışına kimi müstəqil Azərbaycan dövləti demək olar ki, daim fövqəladə vəziyyətdə, komendant saatında yaşamışdı. O, tez bir zamanda qətiyyət və cəsarətlə Azərbaycanda anarxiya, xaos, qarma-qarışıqlıq yaradan, hakimiyyət uğrunda sallaqxana köpəkləri leş üstündə boğuşan kimi didişən"siyasətçiləri" xalqın köməyi, dəstəyi ilə zərərsizləşdirdi. İnşəallah Heydər Əliyev dövlətimiz üçün çox vacib olan bu prosesi qarşıdakı prezident seçkilərində, yenə də xalqın dəstəyi, köməyi ilə sona çatdıracaqdır. Çünki məhz Heydər Əliyev bir neçə hakimiyyətdən sonra ona miras qalmış sınıq-salxaq, tam dağıdılmış dövlət maşınını bu illər ərzində nəinki sazlamış, hətta onu yeniləşdirə bilmişdir. Bunu yalnız onun kimi iti təfəkkürə, hədsiz müdrikliyə , zəngin təcrübəyə, tükənməz səbrə, çox böyük cəsarətə və polad iradəyə malik nəhəng şəxsiyyət görə bilərdi.



Bir iki kəlmə də şahidi olduğum Heydər Əliyev cəsarətindən danışmaq istəyirəm. Artıq hamıya məlum həqiqətdir ki, indiki "demokratlar" 1992-ci ilin oktyabrın 24 də öz əsas siyasi opponentləri Heydər Əliyevi aradan götürmək üçün onu "Salvador Aliyendi variantı" adlı əməliyyatla qətlə yetirmək istəyirdilər. Onların ağılları özlərinə gedirdi. Qısa müddətdə hakimiyyətdə o qədər namərdliklər, naxələfliklər, haqsızlıqlar, hətta cinayətlər törətmişdilər ki, xalq onları nəinki dəstəkləmir, onlara çox dərin nifrət bəsləyirdi. Naxçıvan camaatı Heydər Əliyevin müdafiəsinə qalxdı və cinayətkar cəbhəçi "bəy"ləri necə lazımdırsa yerində oturtdu. O zaman Bakıdakı irtica, başda Daxili İşlər naziri olmaqla, Naxçıvana Heydər Əliyevi devirməyə silahlı qüvvələr göndərmək fikrinə düşdü. O, "qeyrətli" desantın gözləndiyi günün gecəsi mən Heydər Əliyevlə görüşüb əldə olan məlumatları tutuşdurduqdan sonra ondan soruşdum: " Birdən Bakıdan gələnlər istefa tələbini qoydular ?!".

Əslində bu hadisələrdə özümü də "günahkar" sayırdım. Çünki Bakıdakı "bəy"lər Heydər Əliyevə qarşı onun siyasi partiya yaratmağa razılıq verdiyindən sonra təzyiqi daha da artırmışdılar. Və bütün bunlara baxmayaraq, artıq biz Yeni Azərbaycan Partiyasının ilk konfransına hazırlaşırdıq. Düzü Heydər Əliyevi Partiya sədri kimi qorumaq naminə lazım gələrsə, onun Ali Məclisin sədrliyindən əl çəkməsi variantını da götür-qoy edirdim. Çox gözəl anlayırdım ki, xalqımın, vətənimin, sabahkı taleyi bu insandan asılıdır və həyəcanla sualımın cavabını gözləyirdim.

Heydər Əliyev düz gözlərimin içinə baxa-baxa sağ yumruğunu qarşısındakı masaya vuraraq qətiyyət və cəsarətlə dedi: "Məni burada xalq əyləşdirib və nə qədər ki, inanır, burada olacağam!".

O zaman öz-özümə düşünürdüm: "Kaş dünyanın ən mötəbər informasiya kanallarının operatorları burada olaydılar və əsl dövlət kişisinin əsl kişiliyini, fədakarlığını, mərdliyini lentə alaydılar, bütün dünyada göstərəydilər".

Xalqımız tarixən mərdliyi, kişiliyi xoşlayıb, qoruyub ona dəstək veribdir. O gün bir anlığa bütün fikirlərimdən vaz keçərək sövq- təbii dilləndim: "Sabah mən də burada olacağam".

Təxminən iki il sonra buna bənzər hadisə 1994-cü ilin oktyabr ayının 4-də Bakıda baş verdi. Yenə Heydər Əliyev cəsarəti, qətiyyəti, bir də xalq dəstəyi daxili, xarici irticaya qalib gəldi. Hakimiyyətdən kənarda olan Heydər Əliyevi dəstəkləyən xalq bu dəfə də hakimiyyətdə əyləşən Heydər Əliyevi qorudu. Çünki onu hakimiyyətə xalqın özü gətirmişdi. Xöşbəxtəm ki, o gün də xalqın içindəydim.

Bütün nəhəng, qüdrətli, nadir şəxsiyyətlər kimi, Heydər Əliyevin həyatı, taleyi də enişli-yoxuşlu keçməkeşli və mürəkkəb olubdur. Buna "Günəş sindromu" da demək mümkündür. Planetimizi, insanları, bütün canlıları yaşadan Günəşdir və insanlar ən çox giley- güzarı da Günəşdən edirlər; soyuğa düşənlər hərarətinin azlığından, istiyə dözməyənlər isə hərarətin çoxluğundan gileylənir, inciyir, narazılıq edirlər. Əbədi yaşadanımız Günəş isə bütün bunlara məhəl qoymadan öz hərarətini bizdən əsirgəmədiyi üçün bəşər övladı onu sevir, ona səcdə edir.

Heydər Əliyevdən söz düşəndə adətən onun bir sıra fenomenal keyfiyyətləri ilə yanaşı, tükənməz enerjiyə malikliyini də heyranlıq və təəccüblə qeyd edir, bunun

mənbəyini axtarırlar. Bütün yaradıcılar, yaradanlar kimi Heydər Əliyevin tükənməz enerjisinin mənbəyi də onun yaratdıqlarındandır. Nə qədər çox yaradırsa, o qədər də çox enerji alır.

Heydər Əliyevdən danışanda bir də ətrafının ona oxşamadığını söyləyirlər. Bu da həqiqətdir.Lakin dağlar silsiləsi bir səviyyədə olarsa nəhəng, uca zirvələr itər, yoxa çıxar,gözə dəyməz..

Xalqımın taleyinə biganə qalmayan dövlətimizin gündən-günə yüksəlməsini qəlbən arzulayan bütün həmvətənlərim kimi mən də ürəkdən sevinirəm ki, dünya siyasətində nadir şəxsiyyətlərdən biri, öz tükənməz enerjisi ilə bundan sonra da görəcəyi işləri ilə çoxlarını heyran qoyacaq, ömrünün 80-ci baharını xöşbəxt rəhbər, milli lider, xoşbəxt ata, xoşbəxt baba kimi qarşılayan Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri, həyatı nəsillərə örnək və gərək olacaq Heydər Əliyevlə yanaşı, Azərbaycan siyasi ictimai həyatında Heydər Əliyevə çox-çox oxşayan İlham Əliyev də var!

1969-cu ilin yayında Moskva dəmiryol vağzalında müəllimə həmkarımın mənə verdiyi xoş xəbər çox tutarlı, əsaslı müjdə imiş !..